Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikası Konstitusiyasında hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ təsbit olunmuş və Əsas Qanunda işçilərin əmək və istirahət hüquqlarının əsasları əksini tapmışdır. Eyni zamanda, ilbəil təkmilləşən ölkə qanunvericiliyində işçi insanların həyat və sağlamlığı üçün təhlükəli əmək şəraitinə görə aidiyyəti şəxslərin məsuliyyətə cəlb olunması müəyyən edilmişdir.

Əməyin təhlükəsizliyi və sağlamlaşdırılması istehsalatda işçilərə sağlam və normal əmək şəraitinin yaradılmasına, əməyin mühafizəsinin və texniki təhlükəsizliyin təmin edilməsinə, istehsalatda baş verən qəza hallarının, əmək xəsarətinin və peşə xəstəliklərinin qarşısının alınmasına, işçilərin vaxtlı-vaxtında əməyin mühafizəsi üzrə təlimatlandırılmasına və biliklərinin yoxlanılmasına yönəldilmiş sosial-iqtisadi və hüquqi tədbirlər sistemindən ibarətdir.

İş yerlərində əməyin mühafizəsinin mövcud norma və qaydalara, dövlət standartlarına uyğun təşkili əmək prosesində peşə risklərinin minimum səviyyəyə endirilməsinə səbəb olacaq əsas istehsal amili kimi qiymətləndirilir. Əməyin mühafizəsi sahəsində göstərilən səylərə baxmayaraq, BƏT-in məlumatına görə hər il dünyada istehsalat xəsarəti və peşə xəstəliyindən 2 milyon nəfər həlak olur. Bu isə dünyada istehsal olunan ümumi daxili məhsulun 4%-inin itirilməsi ilə nəticələnir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 212-ci maddəsinə əsasən, əməyin mühafizəsinə dair vahid dövlət siyasəti Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta sahəsində münasibətlər "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" 11 may 2010-cu il tarixli Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Əməyin mühafizəsi və istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın təmin olunması məqsədi ilə dövlət orqanları ilə sığorta şirkətləri arasında qarşılıqlı faydalı əlaqələrin yaradılması zəruriliyi nəzərə alınaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ilə Azərbaycan Respublikası qanunvericiliyinə